Yeni Dizaynlı 5 dollarlıq Əskinaz

Daha təhlükəsiz. Daha zərif. Daha etibarlı.

# Verilənlər Cədvəli

## Amerika Birləşmiş Ştatlarının Valyuta Mərhələləri

| | |
|---|---|
| **Müstəmləkə Əskinazları** 1690 | On üç Müstəmləkədən biri olan This should be Massaçusets Körfəzi Müştəmləkəsi hərbi əməliyyat xərclərini ödəmək üçün ilk kağız pulu buraxdı. Kağız pul buraxmaq təcrübəsi bütün müstəmləkələrə yayıldı. |
| **Franklinin Pulların Saxtalaşdırılmasının Unikal Qarşısını alma üsulu** 1739 | Benjamin Franklinin Filadelfiyadakı çap etmə firması təbii naxışlarla - əsl yarpaqlardan tökülmüş modellərin basması ilə müstəmləkə əskinazlarını çap etdi. Bu proses əskinazların saxtalaşdırılmasının qarşısını almaq üçün yeni və effektiv üsul idi, ancaq əsrlər sonraya qədər tam başa düşülmədi. |
| **Britaniya Qadağası** 1764 | Müstəmləkə kağız puluna qoyulan məhdudiyyətlərdən illər sonra, Britaniya Müstəmləkələr tərəfindən kağız pul buraxılmasına tamamilə qadağa qoydu. |
| **Kontinental Valyuta** 1775 | İstiqlaliyyət Müharibəsini maliyyələşdirmək üçün Kontinental Konqres kağız pul buraxdı. Kontinental valyuta İspan milled dolları ilə ifadə olunurdu. Möhkəm əsası olmadan bu əskinazlar asanlıqla saxtalaşdırılırdı və onlar tezliklə “Kontinentala layiq deyil!” ifadəsilə öz dəyərlərini itirdilər. |
| **Şimali Amerika Bankı** 1781 | Konqres yeni qurulan hökumətin maliyyə əməliyyatlarını dəstəkləmək və həyata keçirmək məqsədilə ilk milli bank kimi Filadelfiyada Şimali Amerika Bankını təsis etdi. |
| **Dollar** 1785 | Konqres, dolları ABŞ-ın pul vahidi qəbul etdi. |
| **İlk Mərkəzi Bank** 1791 | Konqres ABŞ Xəzinəsinin maliyyə agenti kimi 20 illik müddətə Birləşmiş Ştatlar Bankını təsis etdi. Bu bank hökumət üçün mərkəzi bank xidmətlərini yerinə yetirən ilk bank idi və 1811-ci ilə qədər fəaliyyət göstərdi. Bu ildə Konqres bankın nizamnaməsini yeniləməyi rədd etdi. Konqres xalqın maliyyə ehtiyaclarını ödəmək üçün mərkəzi bank sisteminin hələ də vacib olduğunu başa düşərək, növbəti 20 illik müddətə 1816-cı ildə ikinci Birləşmiş Ştatlar Bankını təsis etdi. |
| **Valyuta Sistemi** 1792 | 1792-ci ilidə Metal Pullar üzrə Akta əsasən ABŞ zərbxanası və federal valyuta sistemi yaradıldı, xırda pullar üçün ad təyin edildi, qızıl, gümüş və ya mis olan xırda pulların dəyəri müəyyən edildi. |

# Verilənlər Cədvəli

| | |
|---|---|
| **Əskinazlar**<br>**1861** | ABŞ federal hökuməti kağız pulların ilk ümumi dövriyyəsini 1861-ci ildə həyata keçirdi. Vətəndaş Müharibəsini maliyyələşdirmək üçün Konqres, ABŞ Xəzinəsinə faizsiz Sadə Veksellər buraxmaq səlahiyyəti verdi. Bu bank notlar rənglərinə görə “greenback” (yaşıl fonlu) adını qazandılar. Bugün ABŞ-ın 1861-ci ildən bəri buraxılan bütün kağız pulları etibarlıdır və tam dəyəri ilə mübadilə edilə biləndir. |
| **İlk 10 dollarlıq Əskinazlar**<br>**1861** | Sadə Veksellər adlandırılan ilk 10 dollarlıq əskinazlar 1861-ci ildə ABŞ Dövlət Xəzinəsi tərəfindən buraxılıb. Bu əskinazların ön tərəfində Prezident Abraham Linkolnun şəkli təsvir olunur. |
| **Dizayn**<br>**1862** | 1862-ci ildə pulların saxtalaşdırılmasının qarşısının alınması tədbirləri kimi ABŞ kağız pullarının dizaynına beş xətli naxış, qarışıq həndəsi naxışlar, Xəzinə möhürü və həkk olunmuş imzalar əlavə olundu. O vaxtdan etibarən ABŞ Xəzinəsi saxtalaşdırmanın qarşısını almaq üçün səciyyəvi cizgilər əlavə etməyə davam edir. |
| **Milli Bank Sistemi**<br>**1863** | Konqres milli bank sistemi yaratdı və ABŞ Xəzinəsinə Milli Bank Notların buraxılmasına nəzarət etmək üçün səlahiyyət verdi. Bu sistem “milli” bankların təsis və idarə edilməsi üçün Federal göstərişlər hazırladı və həmin banklara ABŞ istiqrazlarının satın alınması ilə zəmanət verilən milli valyutanı buraxmağa icazə verdi. |
| **Məxfi Xidmət**<br>**1865** | Fəaliyyətləri ilə xalqın milli valyutaya olan inamını pozan valyutanı saxtalaşdıranlara nəzarət məqsədi ilə ABŞ Maliyyə Nazirliyinin İdarəsi kimi ABŞ Məxfi Xidmət Agentliyi yaradıldı. |
| **Pul Nişanlarının və Qiymətli Kağızların Buraxılması Bürosu**<br>**1877** | ABŞ Maliyyə Nazirliyinin Pul Nişanlarının və Qiymətli Kağızların Buraxılması Bürosu ABŞ kağız pullarını çap etməyə başladı. |
| **Rəngli Fonda Çap edilmiş Kağız Pullar**<br>**1905** | Rəngli fonda çap edilmiş sonuncu ABŞ kağız pulu 1905 seriyalı 20 dollarlıq Qızıl Sertifikatdır, qızılı çalara, qırmızı möhürə və seriya nömrəsinə malikdir. |
| **Federal Ehtiyat Qanunu**<br>**1913** | 1913-cü ildə qəbul edilmiş Federal Ehtiyat Sistemi haqqında Qanuna əsasən xalqın mərkəzi bankı kimi və ölkənin qeyri-müntəzəm maliyyə ehtiyaclarına cavab verən milli bank sistemini nəzərə alaraq Federal Ehtiyat Sistemi yaradıldı. Federal Ehtiyat Şurası Federal Ehtiyat Əskinazları adlı yeni valyuta buraxdı. |

# Verilənlər Cədvəli

**İlk 10 dollarlıq Federal Ehtiyat Sistemi Əskinazı**
**1914**

İlk 10 dollarlıq Federal Ehtiyat əskinazları 1914-cü ildə buraxıldı. Bu əskinazlar indi buraxılan əskinazlardan böyük idi və ön tərəfində Prezident Andryu Ceksonun şəkli əks olunurdu.

**Standartlaşdırılmış Dizayn**
**1929**

Bütün kağız pulların görünüşündə ilk əsaslı dəyişiklik 1929-cu ildə baş verdi. İstehsal xərclərini azaltmaq məqsədilə bütün kağız pulların ölçüsü 30 faiz azadıldı. Əlavə olaraq ABŞ kağız pullarının hər bir denominasiyası üçün standartlaşdırılmış dizaynlar təsis edildi.  Bununla dövriyyədə olan müxtəlif dizaynların sayı azaldıldı. Bu standartlaşdırma xalqın əsl və saxta bankotları tanımasını asanlaşdırdı.

**Yalnız Allaha İnanırıq**
**1957**

"Yalnız Allaha İnanırıq" Milli şüarının bütün valyutaların üzərində əks olunması 1955-ci ildən qanun tərəfindən tələb olunur.  Bu şüar ilk olaraq 1957 seriyalı 1 dollarlıq Gümüş Sertifikatlarda əks olundu və sonra 1963 seriyalı Federal Ehtiyat Əskinazların üzərində əks olunmağa başladı.

**Təhlükəsizlik Sapı və Mikrotipiya**
**1990**

Təkmilləşdirilmiş surət çıxaranlar və printerlər vasitəsilə saxta pulların çıxarılmasının qarşısını almaq məqsədilə təhlükəsizlik sapı və mikrotipiya tətbiq edildi. Bu cizgilər ilk olaraq 1990 seriyalı 100 dollarlıq əskinazlarda əks olundu. 1993 seriyalarına qədər bu cizgilər 1 və 2 dollarlıq əskinazlar müstəsna olmaqla bütün denominasiyalarda əks olundu.

**Valyuta Dizaynının Yenilənməsi**
**1996**

1967-ci ildə dizaynda ilk əsaslı dəyişiklik zamanı, saxtalaşdırmanın qarşısının alınması üzrə yeni üsulları birləşdirmək məqsədilə ABŞ kağız pulunun dizaynı dəyişdirildi. Yeni əskinazlar 1996-cı ildə 100 dollarlıq əskinazın buraxılması ilə dövriyyəyə buraxılmağa başladı, bundan sonra 1997-ci ildə 50 dollarlıq əskinaz, 1998-ci ildə 20 dollarlıq əskinaz, 2000—ci ildə 10 və 5 dollarlıq əskinazlar buraxıldı.

**ABŞ Məxfi Xidməti  ABŞ Milli Təhlükəsizlik Departamentinə birləşdirildi**
**2003**

Saxtalaşdırmaya qarşı dolların təhlükəsizliyinin qorunması digər milli təhlükəsizlik tədbirləri ilə yanaşı həyata keçirilirdi, belə ki, ABŞ Məxfi Xidməti yeni ABŞ Milli Təhlükəsizlik Departamentinə birləşdirildi.

# Verilənlər Cədvəli

**Pulun Yeni rəngi: Daha təhlükəsiz. Daha zərif. Daha etibarlı.**
**Yeni 20 dollarlıq Əskinaz**
**2003**

Saxtalaşdırmanın qarşısını almaq üçün ABŞ hökuməti yeni 2004 seriyalı əskinaz dizaynlarını təqdim etdi. Yeni dizaynlı 20 dollarlıq əskinaza daxildir:

- *Dəyişkən Rəngli Mürəkkəb:* Əskinazın ön tərəfində aşağı sağ küncdə "20" rəqəminə baxın. Əskinazı yuxarı aşağı əyəndə dəyişkən rəngli mürəkkəb mis rəngindən yaşıl rəngə çalır. Yeni dizaynlı əskinazlarda istifadə olunan dəyişkən rəngli mürəkkəb insanların pulu yoxlamalarını asanlaşdırır.
- *Su nişanı:* Əskinazı işığa tutun və su nişanını və ya iri şəklə bənzər solğun təsviri axtarın. Su nişanı kağızın özünün hissəsidir və əskinazın hər iki tərəfindən görünür.
- *Təhlükəsizlik sapı:* Əskinazı işığa tutun və kağızın bir tərəfinə şağuli istiqamətdə həkk olunmuş təhlükəsizlik sapını və ya plastik zolağı axtarın. Əgər diqqətlə baxsanız əskinazın hər iki tərəfindən "USA TWENTY" sözünü və sap boyu kiçik bayrağı görə bilərsiniz. Təhlükəsizlik sapı ultrabənövşəyi işığın altında yaşıla çalır.

**Yeni 50 dollarlıq əskinaz**
**2004**

Yeni dizaynlı 50 dollarlıq əskinaz 28-sentyabr 2004-cü ildə buraxılıb və üç təhlükəsizlik əlamətlərinə malikdir:

- *Dəyişkən Rəngli Mürəkkəb:* Əskinazın üz tərəfində aşağı sağ küncdə "50" rəqəminə baxın. Əskinazı yuxarı aşağı əyəndə dəyişkən rəngli mürəkkəb mis rəngindən yaşıl rəngə çalır. Yeni dizaynlı əskinazlarda istifadə olunan dəyişkən rəngli mürəkkəb insanların pulu yoxlamalarını asanlaşdırır.
- *Su nişanı:* Əskinazı işığa tutun və su nişanını və ya iri şəklə bənzər solğun təsviri axtarın. Su nişanı kağızın özünün hissəsidir və əskinazın hər iki tərəfindən görünür.
- *Təhlükəsizlik sapı:* Əskinazı işığa tutun və kağızın bir tərəfinə şağuli istiqamətdə həkk olunmuş təhlükəsizlik sapını və ya plastik zolağı axtarın. Əgər diqqətlə baxsanız əskinazın hər iki tərəfindən "USA 50" sözünü və sap boyu kiçik bayrağı görə bilərsiniz. Təhlükəsizlik sapı ultrabənövşəyi işığın altında sarı rəngə çalır.

# Verilənlər Cədvəli

**Yeni 10 dollarlıq əskinaz**
**2006**

Yeni dizaynlı 2004A seriyalı 10 dollarlıq əskinaz 2 mart, 2006-cı ildə buraxılıb. Seriyadakı "A" hərfi əskinazdakı bəzi dəyişiklikləri göstərir; bu əskinazda xəzinadarın imzasında dəyişiklik var. Yeni dizaynlı 10 dollarlıq əskinaza daxildir:

- *Dəyişkən Rəngli Mürəkkəb:* Əskinazın üz tərəfində aşağı sağ küncdə "10" rəqəminə baxın. Əskinazı yuxarı aşağı əyəndə dəyişkən rəngli mürəkkəb mis rəngindən yaşıl rəngə çalır. Yeni dizaynlı əskinazlarda istifadə olunan dəyişkən rəngli mürəkkəb insanların pulu yoxlamalarını asanlaşdırır.
- *Su nişanı:* Əskinazı işığa tutun və Xəzinə Katibi Aleksandr Hamiltonun solğun şəkli iri portretinin sağ tərəfində görünəcək. Bu əskinazın hər iki tərəfindən görünür. Bu əskinazda su nişanının yerini vurğulamaq üçün dizayna boş oval əlavə olunub.
- *Təhlükəsizlik sapı:* Əskinazı işığa tutun və şəklin sağ tərəfinə şağuli istiqamətdə həkk olunmuş təhlükəsizlik sapını və ya plastik zolağı axtarın. Əgər diqqətlə baxsanız əskinazın hər iki tərəfindən "USA TEN" sözünü və sap boyu kiçik bayrağı görə bilərsiniz. Təhlükəsizlik sapı ultrabənövşəyi işığın altında narıncı rəngə çalır.

**Yeni 5 dollarlıq əskinaz**
**2008**

Yeni dizanlı 5 dollarlıq əskinaz 13 mart 2008-ci ildə buraxılıb. Yeni və təkmilləşdirilmiş təhlükəsizlik cizgiləri yeni beş dollarlıq əskinazı yoxlamağı asanlaşdırır və saxta variantının çıxarılmasını xeyli çətinləşdirir. Bu əskinazda var:

- *Su nişanları:* Bu əskinazda iki su nişanı var. İri rəqəmlə yazılmış "5" su nişanı, köhnə dizaynlı beş dollarlıq əskinazda olan Prezident Linkolnun şəklini əvəz edən şəklin sağındakı boş yerdə yerləşir. İkinci su nişanı – üç kiçik "5"-dən ibarət sütun – yeni 5 dollarlıq əskinaz dizaynına əlavə edilib və şəklin solunda yerləşdirilib.
- *Təhlükəsizlik sapı:* Əskinazı işığa tutun və şəklin sağ tərəfinə şağuli istiqamətdə həkk olunmuş təhlükəsizlik sapını və ya plastik zolağı axtarın. Əgər diqqətlə baxsanız əskinazın hər iki tərəfindən "USA 5" sözünü görə bilərsiniz. Təhlükəsizlik sapı ultrabənövşəyi işığın altında mavi rəngə çalır.